AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 may 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 18 (3531)



# BİRLİK, QAYIDIŞ, LƏYAQƏT VƏ MUSİQİ BAYRAMI

## “Xarıbülbül” festivalı yeni başlanğıcın sədası oldu

Bu gün Şuşada dalğalanan Azərbaycan bayrağı yalnız düşmənə gözdağı vermir, həm də öz ərazi bütövlüyünü bərpa edən bir dövlətin suverenliyini bütün dünyaya göstərir. Prezident İlham Əliyevin Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi də, bundan sonra bu torpaqlarda əbədi yaşayacağımızın, Şuşanı göz bəbəyi kimi qoruyacağımızın qəti mesajı oldu.

Azadlığına qovuşan Şuşaya dövlətimizin başçısı üç dəfə səfər edib. Mayın 12-də Cıdır düzündə sədası dağları aşan, əzəmətli “Xarıbülbül” yaşayan xalqların həmrəylik, birlik, qardaşlıq duyğularını dilə gətirdi və bu, Şuşa uğrunda, Qarabağ naminə şəhid olan, dumanlı dağların başında özlərinə dumandan xeymə quran oğullarımızın ruhunu şad etdi. Hər birimiz qürur duyduq, iftixar hissi keçirdik, köksümüz qabardı...

“Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən “Xarıbülbül” musiqi festivalı şəhidlərimizin əziz xatirə-






musiqi festivalında iştirak edən Prezident İlham Əliyev bu hadisəni hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə musiqi, birlik, qayıdış və ləyaqət bayramı adlandırmaqla, xalqımızı Şuşaya bağlayan güclü mənəvi bağları ifadə etdi. Festivalda səslənən milli musiqilər, ölkəmizdə sinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir”,- deyən Prezident İlham Əliyev güc, iradə, cəsarət, milli ruh hesabına tarixi ədalətin bərpa edildiyini növbəti dəfə bəyan etdi. Bildirdi ki, indi abadlıq-quruculuq işləri ilə məşğul olmaq zamanıdır. Azərbaycan dövləti sülh şəraitində Qarabağın əvvəlki şöhrətini özünə qaytarmaq üçün bütün imkanlarını səfərbər edib.

Dövlət başçısı İlham Əliyevin göstərişi, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən bu festival qazanılmış böyük Zəfərin region üçün xüsusi əhəmiyyətini bir daha göstərdi, mövcud olan yeni reallığı nümayiş etdirdi, Azərbaycan xalqının mədəniyyətinə, milli kimliyinə sadiqliyini sübut etdi. “Xarıbülbül” festivalı həm də Azərbaycanın multikulturalizm ənənələrinin simvoluna çevrildi.

Şuşada yeni məscidin, orta məktəbin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş “Xan qızı Natəvan” bulağından su gəldi. Yeni təmir edilən Yuxarı Gövhərağa məscidində bayram namazı qılındı. Prezident İlham Əliyevin də dediyi kimi, bütün bunlar böyük rəmzi məna daşıyır.

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Belarus Respublikasının müdafiə naziri Viktor Xrenini qəbul edib.*

*Dövlətimizin başçısı mayın 18-də Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə Oljas Süleymenovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri mayın 18-də dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında fərman imzalayıb.*

# Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin birgə məlumatı

Xəbər verildiyi kimi, mayın 15-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə’” sərhəd dəstəsinin xidməti ərazisində 3 nəfər naməlum şəxs Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənarda qanunsuz olaraq keçərkən DSX-nın əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara odlu silahdan atəş açmış və nəticədə xidməti vəzifələrini icra edən 2 hərbi qulluqçunun həlak olması faktı ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə Baş Prokurorluğun İstintaq idarəsində istintaq davam etdirilir. İstintaq zamanı cinayət hadisəsinin iştirakçılarından biri - İran İslam Respublikasının vətəndaşı Həsənəli Bərgi təqsirləndirilən şəxs qismində cəlb edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Bu gün saat 10 radələrində DİN-nin Daxili Qoşunlarının və DSX-nın əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində cinayət hadisəsinin digər iştirakçılarından biri - İran İslam Respublikasının vətəndaşı Ağayi Əllahbəxş Bağış oğlunun Yardımlı rayonu ərazisində gizləndiyi yer müəyyən edilmiş, sonuncu təslim olmayaraq, silahlı müqavimət göstərdiyindən hərbi qulluqçularımız tərəfindən silah tətbiq edilməklə zərərsizləşdirilmişdir.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə keçirilmiş baxış zamanı 1 ədəd “AK 74” silahı, onun komplekt hissəsi – içərisində 20 ədəd patronu olan 1 ədəd daraq, odlu silaha aid gilizlər və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkar edilərək cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq götürülmüş, Əllahbəxş Ağayinin meyitinin xarici və daxili müayinəsinin keçirilməsindən ötrü məhkəmə-tibbi ekspertizası təyin olunmuşdur.

Hazırda cinayətin digər iştirakçısının şəxsiyyətinin müəyyənləşdirilərək istintaqa cəlb edilməsi, habelə işin digər hallarının araşdırılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

*19 may 2021-ci il*



# Ətraf mühitin mühafizəsi polisin də diqqət mərkəzindədir





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ekoloji mühitin, xüsusən yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, eləcə də formalaşmış ənənəyə uyğun olaraq, ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Daxili İşlər Nazirliyinin əməkdaşları Suraxanı rayon ərazisindəki yaşıllıq massivində növbəti ağacəkmə kampaniyası keçiriblər.**

Asayiş keşikçiləri boş qalmış, əkin üçün yararsız ərazidə abadlıq və təmizləmə işləri aparıblar. Yerli iqlimə uyğunlaşdırılmış şam və zeytun tinglərini xüsusi aqrotexniki qaydada qazılmış yerlərdə əkib, suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması üçün qoruyucu dirəklər basdırıblar.

**Gədəbəy Rayon Polis Şöbəsinin** əməkdaşları da ulu öndərin anadan olmasının 98-ci ildönümü münasibətilə ağacəkmə aksiyası keçirib.

Polis əməkdaşları dekorativ, əsasən də, iqlim şəraitinə uyğun və dözümlü 200-dən çox şam ağacı əkiblər. Asayiş keşikçiləri ağacları suvarıb, aqrotexniki qaydada qulluq göstəriblər.

Əkilmiş ağaclara mütəmadi qulluğun göstərilməsi tədbirləri davam etdiriləcək.

# Son nəfəsinədək döyüşən xüsusi təyinatlı...

**Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpası naminə həyatını qurban verən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları siyahısında gizir Tağızadə Cahid Vahid oğlunun da adı var.**

O, 12 fevral 1988-ci ildə Bərdə rayonunun Mirzalıbəyli kəndində dünyaya göz açıb. Mirzalıbəyli kəndindəki Əsman İsmayılov adına tam orta məktəbi bitirib. Yeniyetməlik yaşlarından idmana maraq göstərib, fitnes, ağırlıqqaldırma ilə məşğul olub. Hələ orta məktəbdə oxuduğu illərdə Cahiddə hərbçi peşəsinə rəğbət yaranıb... 2006-cı ilin iyul ayında Cahid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların sıralarında hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 2008-ci ilin yanvar ayında qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsindən ehtiyata buraxılıb. Cahid bir neçə ay sonra yenidən Daxili Qoşunların sıralarına qayıdıb. 2008-ci ilin iyun ayının 25-dən etibarən qoşunların Bərdə rayonundakı "N" saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada minaatan batareyasının minaatan taqımında minaatan komandiri vəzifəsinə təyin edilib. Hərbi xidmətdə əzmkarlığı və çalışqanlığı ilə komandanlığın etimadını doğruldub. O, bu hərbi hissədə motoatıcı bölükdə zenit-raket heyətinin rəisi, xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri vəzifələrinə irəli çəkilib. Müvafiq kursu müvəffəqiyyətlə başa vuraraq "gizir" hərbi rütbəsinədək yüksəlib. 2012-ci ilin dekabr ayından xidmətini davam etdirmək üçün qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinə keçirilib. Hərbi hissədə xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri, habelə atəş təminatı qrupunda minaatan yarımqrup komandiri, eləcə də atəş təminatı qrupunda dəzgahlı qumbaraatan yarımqrupunun komandiri kimi ona etibar olunan vəzifələrdə öz təşkilatçılığı, tabeliyindəki şəxsi heyətlə işləmək bacarığı, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə məsuliyyətlə yanaşmağı ilə fərqlənib.



2013-cü ilin iyul-oktyabr aylarında Cahid Türkiyə Silahlı Qüvvələrinin Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığının Dağ komando kursunu keçib. Xüsusi təyinatlı kimi belə bir kursu bitirməsi peşəkar hazırlığını inkişaf etdirməsi və qiymətli təcrübə toplaması baxımından onun fəaliyyətində xüsusi rol oynayıb.



Vətən müharibəsinədək hərbi xidməti dövründə gizir C.Tağızadə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə mükafatlandırılıb.

2020-ci ilin avqust ayında Cahid Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində təşkil olunan xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edərək, döyüş hazırlığı baxımından öz məharəti ilə seçilib.

Vətən müharibəsində Daxili Qoşunların Zaqatala rayonundakı "N" saylı hərbi hissəsindən ön cəbhəyə göndərilən gizir C.Tağızadə müharibənin ilk günündən döyüşə atılıb. Onun döyüş yolu Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçib.

Cahidlə birgə döyüşmüş gizir Sakit Fərzəliyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları-baş çavuş Malik Niftəliyev və baş əsgər Fərrux Alagözov onun vətənpərvər, iradəli və qətiyyətli olduğunu söyləyirlər. Murovdağ yüksəkliyi uğrunda mürəkkəb relyef, bəzən əlverişsiz hava şəraiti səbəbindən döyüş tapşırıqlarının yerinə yetirilməsinin bütün çətinliklərinə baxmayaraq, Cahidin olduğu qrup və digər qruplar da mətinlik nümunəsi nümayiş etdiriblər.

Gizir S.Fərzəliyev və baş çavuş M.Niftəliyevin sözlərinə görə, Murovdağ döyüşlərindən birində Cahid düşmən mərmisinin partlayış dalğası nəticəsində kəllə-beyin travması alsa da, təxliyyə edilməsinə razılaşmayıb, göstərilən tibbi yardımdan sonra döyüşçülərin yanına qayıdıb.

Baş əsgər F.Alagözov deyir ki, 2020-ci ilin oktyabr ayının ilk günlərində qüvvələrimiz Füzuli və Cəbrayıl rayonları istiqamətində hücum əməliyyatları həyata keçiriblər. Həmin döyüşlərin birində yaxınlıqda partlayan düşmən mərmisi nəticəsində gizir C.Tağızadə ağır yaralanaraq şəhid olub.

Daxili Qoşunların Zaqataladakı "N" saylı hərbi hissəsi komandirinin 13.10.2020-ci il tarixli müvafiq əmrindən çıxarışda, habelə Bərdə Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 08.10.2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə, eləcə də digər sənədlərdə gizir C.Tağızadənin 03.10.2020-ci ildə Füzuli rayonu ərazisində hərbi əməliyyat zamanı partlayış səbəbindən həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz doğma kəndinin qəbiristanlığında dəfn olunub. Mirzalıbəyli kəndindən 4 nəfər Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb. Cahidin müharibədə döyüşərək yaralanan qohumları da var.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə gizir C.Tağızadə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Nərmin və Nihad adlı 2 övladı yadigar qalıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Şəhid ailələri və qazilər ziyarət olunub

Gəncə, Sumqayıt, Mingəçevir, Samux və Zaqatala Şəhər-Rayon Polis idarələrinin əməkdaşları Ramazan bayramı münasibətilə torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ailələrini, qazilərimizi və aztəminatlı soydaşlarımızı ziyarət ediblər.



Asayiş keşikçiləri onlara bayram sovqatı və hədiyyələr təqdim edib, qayğıları ilə maraqlanıblar.

Görüşlərdə şəhidlərimizin şücaəti, mərdliyi xatırlanıb, qəhrəman övladlarımızın xatirəsinin xalqımız tərəfindən daima əziz tutulduğu qeyd olunub. Həmçinin, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətlərindən birinin şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunmasının daima diqqət mərkəzində saxlanıldığı da vurğulanıb.

Şəhid ailələri, qazilər, eləcə də aztəminatlı soydaşlarımız onlara göstərilən bu diqqət və qayğıya görə polis əməkdaşlarına xidməti fəaliyyətlərində uğurlar arzulayaraq, minnətdarlıqlarını bildiriblər.





# Diplomatik korpuslar etibarlı qorunur



**Beynəlxalq qanunlara görə istənilən ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin, xüsusən səfirliklərin ərazisi hüquqi olaraq təmsil etdikləri dövlətlərə məxsus sayılır. Onların təhlükəsizliyinə isə yerləşdikləri dövlətin güc strukturları birbaşa məsuliyyət daşıyır.**

Məlum olduğu kimi, ölkəmizdə bu vacib missiyanı Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Diplomatik Nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taboru həyata keçirir.

Yeri gəlmişkən, bugünlərdə Taborun inzibati binasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşə əməkdaşların ixtiyarına verilib. Fotoşəkillərdən ibarət stendlərlə yaradılan guşə xalqımızın xilaskarına, onun tarixi xidmətlərinə xüsusi ehtiramın bir təzahürüdür.

İnzibati binanın həyətində yaradılan səliqə-sahman, aparılan abadlıq və yaşıllaşdırma işləri də xüsusilə diqqət çəkir. Açıq havada qurulan idman meydançasında əməkdaşların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi üçün zəruri avadanlıq və idman alətləri quraşdırılıb.

**Taborun komandiri, polis polkovnik-leytenantı Əli Abdullayev** qəzetimizə bildirib ki, ölkəmizdə akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi DİN rəhbərliyinin diqqət mərkəzindədir. Nümayəndəliklərin mühafizəsinə cəlb olunan polis əməkdaşları yüksək hazırlıq səviyyələrilə fərqlənirlər. Onun sözlərinə görə, hazırda Əlahiddə Polis Taboru respublika ərazisində yerləşən 50-yə yaxın diplomatik nümayəndəliyin mühafizəsini həyata keçirir.

Qeyd edək ki, diplomatik nümayəndəliklərin mühafizəsi dövlətlər arasında gedən hərbi-siyasi proseslərlə sıx bağlıdır və münaqişə yaşanan dövlətlərin ölkəmizdəki nümayəndəliklərinə qarşı ehtimal olunan təxribatlara adekvat olaraq da təhlükəsizlik tədbirləri artırılır. İkinci Qarabağ müharibəsində Azərbaycanın haqlı davasını dəstəkləyən dost və müttəfiq dövlətlərin nümayəndəliklərinə mümkün erməni terroruna qarşı yüksək təhlükəsizlik tədbirləri görülmüşdür. Tarixdən də məlum olduğu kimi, ermənilər Türkiyə nümayəndəliklərinə qarşı silsilə terror aktları həyata keçiriblər. Vətən savaşı ərəfəsində bu hadisələr barədə Taborun şəxsi heyətinə ətraflı məlumat verilib.

Müharibə günlərində görülən tədbirlər nəticəsində polis postları düşmən təhdidinə qarşı səngərə çevrildi və etibarlı qorunan diplomatik korpuslara qarşı təxribatlara yol verilmədi.

# Birgə tədbirlərlə...

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında, çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə tədbirlərini davam etdirir.

Təkcə cari ilin mart-aprel aylarında birgə keçirilən tədbirlər zamanı Bakı şəhərində və Abşeron rayonu ərazisində İnzibati Xətalar Məcəlləsinin 211-ci (sanitariya-gigiyena və epidemiya əleyhinə rejimlərin pozulması), 264-cü (su obyektlərinin mühafizə qaydalarının pozulması), 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) və 541-ci (ətraf mühitin mühafizəsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələblərinin yerinə yetirilməməsi) maddələrinin tələblərini pozmuş 17 fiziki, hüquqi və vəzifəli şəxs müəyyən edilərək barələrində inzibati tənbeh tədbirləri tətbiq olunub.

Ümumilikdə, cari ilin 4 ayı ərzində şəhər, rayon polis orqanları tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmuş 650 nəfər barəsində inzibati tənbeh tədbirləri tətbiq olunub.

*N.Cavadov,*
*polis mayoru*

# Şəhid polisimizin anım günü qeyd olunub



**Bugünlərdə Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış həmkarımız, polis baş serjantı Natiq Əliyevin anım günü qeyd olunub.** Bu münasibətlə Tərtər Rayon Polis Şöbəsinin şəxsi heyəti onun məzarını ziyarət edib, önünə gül-çiçək dəstələri qoyub, əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Anım günündə N.Əliyevin döyüş yoldaşları onun könüllü olaraq özünümüdafiə batalyonuna qoşulduğundan, döyüşlərdəki cəsarətindən, qorxmazlığından danışıblar.

Qeyd edək ki, Natiq Əliyev 1993-cü ildə Ağdərə Rayon Polis Şöbəsində xidmətə başlayıb. 1994-cü il mayın 6-da doğulub boya-başa çatdığı Ağdərənin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olub.

Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# Onlar tarix yazdılar

## Döyüş yolu dastan olan oğulları tanıyaq

***Füzulidən köçkün düşəndə onun 10 yaşı vardı. Qəlbini göynədən yurd ağrısı illər sonra hərbçi olmaq arzusuna çevrildi. Gizir Şiraz Həsənov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində igidlik göstərən hərbi qulluqçularımızdandır.***



1983-cü il aprelin 26-da Füzuli rayonunun Qaraxanbəyli kəndində doğulan hərbi qulluqçumuzun xidmət yolu zəngin və çoxşaxəlidir. O, 2001-ci ilin oktyabr ayından 2003-cü ilin aprel ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Bir müddət daxili işlər orqanlarında polis serjantı kimi xidmət edib. 2008-ci ilin aprel ayından isə Daxili Qoşunların Bakıda yerləşən "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətə başlayıb. 2012-ci ilin avqust ayında müqaviləsinin vaxtı bitən qazimiz bir il Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində mühafizəçi vəzifəsində işləyib.



Xüsusi təyinatlıların sıralarında xidmət etmək onun uşaqlıq arzusu olduğuna görə yenidən, 2013-cü ilin noyabr ayında qoşunların Bakıdakı "N" saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində yarımqrup komandiri vəzifəsində xidmətə qəbul olunub. 2016-cı ilin noyabr ayında isə Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində eyni vəzifəyə keçirilib. O, "Qüsursuz xidmətə görə" 3-cü və 2-ci dərəcəli medallarla, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı ilə təltif olunub.

Qardaş Türkiyə Respublikasında keçdiyi kurslarda qazandığı təcrübə Vətən savaşında onun peşəkar hərbçi kimi verdiyi qərarlarda mühüm rol oynayıb.

Vətən savaşının ilk günlərində Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsi və ermənilərin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə tapşırıqları yerinə yetirən qazimizin daxil olduğu qrup sonra Şuşaya doğru istiqamət alıb. Qazimizlə söhbət zamanı bildirdi ki, xidmət etdiyi hərbi hissənin ilk şəhidi əsgər Nəzir Osmanov olub. Ona ilk tibbi yardım göstərilməsinə baxmayaraq, başından aldığı qəlpə yarasından dünyasını dəyişib.

2020-ci il noyabr ayının 4-də Şirazın daxil olduğu və digər qruplar Şuşa-Laçın yolu üzərindəki yüksəklikdə yerləşən düşmən postlarını alaraq, Şuşaya gedən yolu nəzarətə götürüblər. Tapşırığa əsasən, Şuşa-Laçın yolunun müdafiəsini digər qruplara verib, Şuşa-Xankəndi yolu istiqamətində irəliləyiblər. Onlara Şuşadan Xankəndinə gedən yolu nəzarətə götürmək və Pənahəli xan qalası tərəfdən Şuşaya daxil olmaq tapşırığı verilib.

Qazimiz noyabrın 5-dən 8-nə kimi Şuşa ətrafında meşə və dərələrdə, Şuşa-Xankəndi yolunda gərgin döyüşlərin getdiyini, ordumuzun düşmənə aman vermədiyini qeyd etdi...

Daxili Qoşunların Hərbi Hospitalında müalicə olunan yaralı hərbi qulluqçularımızla görüş zamanı qoşunların Lənkərandakı "N" saylı hərbi hissəsinin xüsusi təyinatlısı çavuş Nicat Əlizadə (hazırda polis orqanında xidmətini davam etdirir) Şirazın qorxmazlığı ilə bərabər, həmçinin, döyüşçü yoldaşlarına münasibətdə yardımsevərliyini də vurğuladı: "Noyabr ayının 6-sı Şuşa-Xankəndi yolunda düşmən tankından atılan mərmi yanımıza düşdü. Qəlpə mənim sol əlimin iki barmağını apardı, əlimdəki silahı isə iki yerə böldü. Şiraz dərhal mənə ilkin tibbi yardım göstərdi".

Qazimiz noyabr ayının 7-si Pənahəli xan qalasında 120 mm-lik minaatan mərmisinin partlaması nəticəsində əlindən və qolundan çoxlu sayda qəlpə yarası alıb. Lakin buna baxmayaraq, yaralı halda həmin gün axşama qədər döyüşüb. Şiraz Daxili Qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları kapitan Ramin Rəhimov və çavuş Elvin Məmmədovun ona zəruri ilkin tibbi yardım göstərdiklərini minnətdarlıqla söylədi.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə gizir Şiraz Həsənov "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*kapitan Sadıq Rəfiyev*

# Diqqət və qayğı göstərilir

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan verilən məlumata görə, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Saatlı Rayon Polis Şöbəsinin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi qrupunun əməkdaşları tərəfindən rayon ərazisində yaşayan qaçqın və məcburi köçkün soydaşlarımıza şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə səyyar xidmət keçirilib.

Tədbir Saatlı rayonu Əlisoltanlı kəndi ərazisindəki qaçqın və məcburi köçkün şəhərciyində baş tutub. Karantin rejimi qaydaları gözlənilməklə həyata keçirilən səyyar xidmət zamanı ümumilikdə 72 vətəndaşın sənədləri qəbul edilib. Onların arasında azyaşlılar da olub.



Səyyar xidmət zamanı əlil və fiziki qüsurlu insanlar da diqqətdən kənarda qalmayıb. Polis əməkdaşları onları yeni şəxsiyyət vəsiqəsi ilə təmin etmək üçün yaşadıqları ünvanlara gedərək müvafiq sənədlərini toplayıblar.

Sakinlər göstərilən diqqət və qayğıya görə DİN rəhbərliyinə və Saatlı RPŞ-nin kollektivinə öz təşəkkürlərini bildiriblər.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişi ilə Nazirliyin nümayəndələri faşizm üzərində Qələbədən sonra həyatlarını daxili işlər orqanlarında xidmətə həsr etmiş bir qrup Böyük Vətən müharibəsi iştirakçısının evində olublar.**











# BÖYÜK QƏLƏBƏNİN YADİGARLARI

## Şuşada dalğalanan bayrağımızı görmək onlara nəsib oldu

Onlar daxili işlər nazirinin səmimi təbriklərini və bayram hədiyyəsini veteranlara çatdırıblar.

Bildirilib ki, İkinci Dünya müharibəsində Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Tarixi qələbənin qazanılmasında Azərbaycan nefti də həlledici rol oynayıb. Mühərrik yağlarının 90, benzinin 80, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətlərinin hər zaman hörmətlə anıldığı, ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra imzaladığı sərəncamla hər il mayın 9-u Qələbə Günü kimi rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməyə, müharibə veteranlarının sosial-məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılmasına başlanıldığı, onların müalicələrinin təşkili istiqamətində əsaslı tədbirlərin həyata keçirildiyi, müvafiq fərman və sərəncamların imzalandığı veteranların diqqətinə çatdırılıb.

Qeyd olunub ki, ümummilli liderin Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olanların ailələrinə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu il faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük zəfərin sevinc hissi ilə birgə qeyd edən veteranlarımız-**Müseyib İlyasov, Mehdi Mehdiyev, Əli Hacıyev, Səfər Abdullayev, Əzim İbrahimov və David Baxşiyev** göstərilən yüksək diqqət və qayğıya görə ölkəmizin başçısına və Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# Qətiyyətli mübarizə

2021-ci ilin birinci rübü ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 2050 cinayət faktı aşkarlanıb. Onlardan 747-si narkotik vasitələrin qanunsuz satışı, 1264-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 13-ü qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 26-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 1 ton 287 kiloqram 819,817 qram narkotik vasitələrin və psixotrop maddələrin 656 kiloqram 378,952 qramını heroin, 326 kiloqram 541,49 qramını marixuana, 147 kiloqram 157,972 qramını tiryək, 25 kiloqram 734,08 qramını həşiş, 89,679 qramını kokain, 29 kiloqram 418,755 qramını metamfetamin və 637,84 qramını digər narkotik vasitələr, 101 kiloqram 861,049 qramını psixotrop maddələr təşkil edib.

Həmçinin göstərilən dövr ərzində 5 kiloqram 881,85 qram güclü təsir edən maddələr, 4,05 qram zəhərli maddələr qanunsuz dövriyyədən götürülüb.

Təhlil göstərir ki, ötən ilin birinci rübü ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin



və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 510, qanunsuz satışı ilə bağlı faktların sayı 147, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 356, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 7 vahid artıb, bu kateqoriyadan olan digər cinayətlərlə bağlı faktların sayı isə sabit olub.

Həmçinin, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 656 kiloqram 945,417 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 300 nəfər artıb.

*N.Cavadov*

# DÜNYANI UŞAQLARA VERƏK!

## Bayram günlərini uşaqlara həsr etdik





Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin əməkdaşları Ramazan bayramı ərəfəsində autizmli və kimsəsiz uşaqlarla görüşüblər.

**Sabunçu rayonunda yerləşən 11 nömrəli inteqrasiya təlimli internat məktəbin şagirdləri ilə karantin qaydalarına əməl etməklə keçirilən görüşdə polis əməkdaşları uşaqlarla söhbət edib, onların**







**şəraitləri, təhsilləri ilə maraqlanıblar.** Həmkarlarımızı sevinc hissi ilə qarşılayan uşaqlar gələcəkdə qanun keşikçisi olmaq, bəziləri isə həkim, müəllim, hərbçi peşələrini seçmək kimi arzularını dilə gətiriblər. Onlara arzularına çatmaq üçün təhsildə uğur qazanmalarının vacibliyini izah edən asayiş keşikçiləri azyaşlılarla müxtəlif oyunlar oynayıb, onların kiçik dünyalarına rəng qatıblar.

**Məktəbin direktoru Gülnarə Abdullayevanın** sözlərinə görə, internat evində 1648 uşaq dövlətin himayəsinə sığınıb. Onlardan 248-nin xüsusi qayğıya ehtiyacı var, 120-si isə 3-5 yaş arasında olan uşaqlardır. O, uşaqların keyfiyyətli təhsili, qayğılarının qarşılanması üçün dövlət tərəfindən bütün lazımi tədbirlərin görüldüyünü bildirib. Bu, özünü nəticələrdə də göstərir. Məktəbin məzunlarından Polşada, Almaniyada və Türkiyədə təhsillərini davam etdirənlər var.

**Əməkdaşlarımız “Birgə və Sağlam” İctimai Birliyində təlim keçən autizmli uşaqlarla da görüşüblər.** Həmkarlarımız onların bişirdikləri təamlardan dadıb, əylənib, deyibgülüblər. Hətta onlardan bəziləri yol patrul xidməti avtomobilində ictimai asayişi və təhlükəsizliyi qoruyan həmkarlarımızla birlikdə “xidmətə” çıxıblar. **Birliyin təsisçisi Aytən Eynalova** bu görüşün uşaqlarda dərin təəssürat yaradacağına əminliyini ifadə edib.

Sonra uşaqlara bayram sovqatları təqdim olunub.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# İnternetin “qurbanı” olmayın

**Kibercinayətkarın ən güclü silahı ünsiyyət və inandırma bacarığıdır**

**İnternet üstünlükləri ilə yanaşı, ortaya həll edilməli problemlər də çıxarır. Bunlardan biri, daha doğrusu, elə birincisi kibercinayətkarlıqdır.**

Bu, xüsusi bir cinayət növüdür və xüsusiyyətlərinə görə “ənənəvi” cinayətlərdən kəskin şəkildə fərqlənir. Onunla mübarizə aparmaq üçün hüquq mühafizə orqanları əməkdaşlarından xüsusi bacarıq tələb olunur. Rəqəmsal sübutların toplanmasını və cinayətlərin dərhal aşkarlanmasını çətinləşdirən internetin xüsusi quruluşu, insanların internetdən asılılığının artması fonunda, getdikcə daha çox cinayətlər virtual məkanda törədilir.

Dünyada hər gün bir milyon insan internetdə cinayətlərin qurbanı olur. Statistik rəqəmlər göstərir ki, zərərçəkmişlərə dəymiş ziyanın miqdarı il ərzində 290 milyard avro təşkil edir. Mütəxəssislərin fikrincə, internetə sərbəst çıxışı olan ölkələrdə kibertəhlükəsizliyin dərəcəsi daha yüksəkdir. Çünki internet üzərindən törədilən cinayətlərin coğrafi sərhədləri yoxdur və bu da mübarizəni çətinləşdirir.

Virtual məkanda törədilən cinayətlərin spektri son dərəcə genişdir - bank və ya şəxsi məlumatların oğurlanması, insan alveri, narkotik ticarəti və sair. Mütəxəssislər hesab edir ki, ölkələr virtual məkanda beynəlxalq əməkdaşlığı gücləndirsələr kibercinayətkarlıqla, o cümlədən dünyanı təhdid edən terrorizmlə mübarizə daha təsirli ola bilər.

Ölkəmizdə də kibercinayətkarlıqla qətiyyətli mübarizə aparılır. İnsanların etibarından sui-istifadə edən dələduzların tutulması istiqamətində polis və digər hüquq mühafizə orqanları tərəfindən uğurlu əməliyyat tədbirləri keçirilir.

Mövzu ilə bağlı suallarımızı cavablandıran **DİN Baş İnformasiya-Kommunikasiya İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Hikmət Məmmədov** bildirdi ki, virtual məkanda “Phishing”lər (fırıldaqçı(fişer) “tələ” quraraq bu tələyə düşən internet istifadəçilərini aldatmaqla məşğuldurlar. “Fişer”lər müxtəlif üsullarla internet istifadəçilərindən bank hesablarını, kredit kartlarını və internetə çıxış üçün lazım olan informasiyaları öyrəndikdən sonra öz çirkin niyyətlərini həyata keçirirlər.



Kibercinayətlərin qurbanı olanların polisə və digər hüquq mühafizə orqanlarına müraciət etməyi artıq həyəcan təbiidir. Məhz buna görə də vətəndaşlarımız dələduzların qurbanına çevrilməsin deyə hüquq mühafizə orqanları, o cümlədən polis əhalini maarifləndirmək üçün internet üzərindən imkanlarını səfərbər edib.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Qələbə qazandı...





**Məlum olduğu kimi, pandemiya səbəbindən Tokio-2020 Yay Olimpiya Oyunları bu il keçiriləcək.** Oyunlarda ölkəmizi təmsil edəcək idmançılar sırasında DİN İdman Cəmiyyətinin də yetirməsi var. Belə ki, taekvandoçu Fəridə Əzizova Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən lisenziya xarakterli Avropa təsnifat turnirində rumıniyalı rəqibinə 8:2, çexiyalı idmançıya 11:4 və ukraynalı taekvandoçuya 7:2 hesabı ilə qalib gələrək Oyunlarda iştirak etmək hüququ qazanıb.

Tokio-2020 Yay Olimpiadası yetirməmizin iştirak edəcəyi üçüncü olimpiada olacaq.

İdman uğurumuzla bağlı daha bir xəbər Moskvadan gəldi. Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis baş serjantı Azər Fətullayev mayın 15-də güc strukturları arasında cüdo üzrə keçirilən beynəlxalq turnirin qalibləri sırasında olub. O, erməni, qırğız və tacik idmançılarına qalib gələrək finala yüksəlib. Çempionluğa gedən yolda isə rusiyalı rəqibi ondan üstün olub.

Qeyd edək ki, idmançılarımızı bu yarışlara DİN İdman Cəmiyyətinin “Əməkdar məşqçi”ləri Səbuhi Zülfüqarov və Zakir Kərimov hazırlayıblar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Xəzər RPİ 2-ci Polis Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Buzovna qəsəbəsi ərazisində Ramana qəsəbə sakini İ.Nağıyevdən nömrəsi silinmiş “AKM” markalı avtomat silahı, patron darağı və 26 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ 22-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində mayın 9-da F.İsmayılovaya zor tətbiq edərək soyğunçuluq yolu ilə mobil telefonunu almaqda şübhəli bilinən Mingəçevir şəhər sakini, əvvəllər məhkum olunmuş R.Əşrəfov saxlanılmışdır.

◆◆◆

**Suraxanı RPİ-nin 33-cü Polis Bölməsi** əməkdaşlarının daxil olmuş müraciətlər əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri olan 6 nəfərin bank hesablarından ümumilikdə 2352 manat pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Nəcəfli müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Sumqayıt ŞPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Corat qəsəbə sakini M.Xəlilov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 18 qrama yaxın heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan əlavə 690 qram heroin götürülmüşdür.

◆◆◆

**Yasamal RPİ-nin 28-ci Polis Bölməsinə** müraciət edən Bakı şəhər sakini M.Səmədov mayın 16-da bir nəfərin ona məxsus “VAZ-2107” markalı avtomobildən içərisində 100 manat və 5 min rubl (100 manat) olan pulqabısının soyğunçuluq yolu ilə talandığını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində bu cinayət əməlini törətməkdə şübhəli bilinən paytaxt sakini İ.Hüseynov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Neftçala RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini H.Səlimov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 670 qrama yaxın heroin və 444 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Quba RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Dağlı kənd sakini Q.Əliməmmədovun yaşadığı evə baxış zamanı oradan 3 ədəd “TOZ”, “Karabin” və “İJ” markalı tüfənglər, 1 ədəd patrondaş, 54 ədəd patron, patron hazırlamaq üçün qırma, barıt və alətlər aşkar edilərək götürülmüşdür.

## May ayının 12-dən 18-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 168 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 32 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 168, o cümlədən borclu şəxs qismində axtarışda olan 97 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 20 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 19 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 98 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik